**İ.A.MƏCİDOVA**
*e-mail: macidova_ilaha@adu.edu.az*
**:https://orcid.org/0000-0002-0858-2020**

**Azərbaycan Dillər Universiteti**
(Bakı şəh., R.Behbudov küç., 134)

**10.62021/0026-0028.2025.3.305**

# E.HEMİNQUEYİN "GÜNƏŞ ÇIXIR" ROMANINDA GENDER STEREOTİPLƏRİNİN DAĞILMASI

***Xülasə.*** *E.Heminqueyin "Günəş çıxır" romanı müharibədən sonrakı Avropa cəmiyyətində gender rollarının yenidən formalaşmasını əks etdirir. Əsərin qadın qəhrəmanı Brett Eşli ənənəvi qadın obrazından fərqlənərək emosional və iqtisadi müstəqillik nümayiş etdirir. O, gender stereotiplərini sarsıdan "femme fatale" modelinə çevrilir və cəmiyyətin patriarxal dəyərlərinə meydan oxuyur. Heminquey bu roman vasitəsilə XX əsrin ilk yarısında baş verən sosial və psixoloji dəyişiklikləri, qadın azadlığı və kişi kimliyinin deqradasiyası kontekstində incəliklə təqdim edir.*

***Açar sözlər:*** *gender stereotipləri, qadın azadlığı, postmüharibə, yeni cəmiyyət modeli, gender bərabərsizliyi*

1920-ci illərin sonlarında Ernest Heminquey "itirilmiş nəsil" adlandırılan və Parisin ədəbi-mədəni mühitində yaşayan, zamanını bar və restoranlarda sərxoşluqla keçirən konkret şəxslərə əsaslanaraq *roman à clef* [1] janrında qələmə aldığı "Günəş çıxır" romanı ilə təkcə dövrün mənəvi-əxlaqi problemlərini deyil, həm də sosial gender identikliyində baş verən dərin dəyişiklikləri bədii müstəviyə çıxarmağa müvəffəq olmuşdur. Əsərdə sevginin deqradasiyası, müharibədən sonrakı mənəvi-psixoloji iflas və əvəzedici ideoloji dəyərlərin formalaşması kimi fundamental problemlərlə yanaşı, müəllifin ədəbi kontekstə daxil etdiyi mühüm semantik yeniliklərdən biri də yeni dövrün ideoloji və sosial tələblərinə uyğun formalaşan, azad iradəyə malik modern qadın Ledi Brett Eşli obrazıdır.

XX əsrin ilk onilliklərində formalaşan və patriarxal cəmiyyət strukturuna qarşı yönəlmiş feminist tendensiyaların bədii ifadəsi kimi təqdim olunan Brett obrazı, müasir qadının psixoloji və sosial portretini yaratmaq baxımından xüsusi əhəmiyyət kəsb edir. L.U.Fultona görə, "Brett Heminqueyin ən zəngin və mürəkkəb psixoloji dinamikaya malik qadın obrazlarından biri olmaqla, həm feminist, həm maskulin, həm güc, həm də həssaslıq, eləcə də əxlaqi prinsiplərlə əxlaqsızlığın kəsişdiyi sferada çoxqatlı və dialektik bir varlıq kimi təqdim olunur" [3, s. 61]. Belə bir obrazın yaradılması isə təkcə qadın obrazına deyil, bütövlükdə gender modellərinə qarşı bədii-estetik üsyan xarakteri daşıyır.

Ənənəvi cəngavərlik kodekslərinə və orta əsrlərə xas olan "xilas olunmağa möhtac qadın" arxetipinə radikal şəkildə qarşı duran bu obraz, yalnız sosial rolları deyil, həm də kişi identikliyini sorğulayan performativ gücə malikdir. Ledi Brettin androgin görünüşü, sərbəst davranışları və dominant xarakteri romanda kişi obrazların passivləşməsinə səbəb olmaqla patriarxal normativ maskulinliyin deqradasiyasını nümayiş etdirir.

Ənənəvi maskulin yazı tərzinin tərəfdarı və "klassik kişi" obrazının bədii siması kimi tanınan E.Heminquey 1920-ci illərin Paris mühiti ilə tanış olduqda dərin mədəni-psixoloji sarsıntı yaşamış və onun mühafizəkar tərbiyəsi həmin mühitdə rastlaşdığı qeyri-konvensional

[1] *Roman à clef* – Fransız dilində tərcümədə "açarla oxunan roman" deməkdir. Real həyatda baş vermiş hadisələrə və şəxslərə əsaslanaraq yazılmış, lakin bədii şəkildə dəyişdirilmiş roman növüdür.

nikah münasibətləri, gender kimliyi baxımından fərqli fərdlərlə üz-üzə gəldikcə ciddi şəkildə sınağa çəkilmişdir.

Tədqiqatçı P.Bonds kontekstdə qeyd edir ki, "Heminquey Parisə gəlişi zamanı sadəcə coğrafi deyil, həm də tarixi və sosial baxımdan əhəmiyyətli bir mərhələnin – genderin ənənəvi formalarının dağıldığı və bu rollara dair təsəvvürlərin əsaslı şəkildə yenidən qurulduğu bir epoxaya daxil olurdu. Onun "Paris 1922" adlı eksperimental cümlələr və qeydlərlə zəngin olan yazıları da məhz həmin dövrdə yaşanan dəyişikliklərin – sosial, siyasi və fərdi səviyyədə müşahidə edilən dərin transformasiyaların estetik təzahürü kimi dəyərləndirilə bilər [1, s. 132].

Əvvəlki dövrlərdə ailə dəyərləri müqəddəsləşdirilərək müəyyən ideoloji prinsiplər üzərində qurulduğu halda, XX əsrin 20-ci illərində, xüsusilə Paris cəmiyyətində boşanma hallarının geniş yayılması bu ənənəvi strukturun ciddi şəkildə sarsıldığını göstərir. Məhz belə bir kontekstdə Ledi Brett Eşli obrazı iki dəfə boşanmış və nişanlısı Maykla münasibətdə olduğu dövrdə başqa münasibətlər də yaşayan bir qadın kimi həm patriarxal gender normativlərini, həm də qadın davranışına dair stereotipləri açıq şəkildə sorğulayan bədii model kimi təqdim olunur. Dünyanın bir çox konservativ cəmiyyətlərində bu cür davranış qadının əxlaqsız damğası ilə ictimai qınağa tuş gəlməsi ilə nəticələnirdisə, Parisin kosmopolit və modern ictimai mühitində bu hal həm qəbul olunur, həm də müəyyən mənada normal hesab olunurdu.

XX əsrin ilk onilliklərində qadınların ali təhsil müəssisələrinə daxil olması, iqtisadi müstəqillik əldə etməsi və həyatın müxtəlif sahələrində avtonom subyekt kimi iştirak etməyə başlaması, onların həm peşəkar, həm də emosional müstəvidə azad seçim hüququ qazanmasına şərait yaratmışdır. Bu da, öz növbəsində, ailə institutu daxilində və ümumiyyətlə cəmiyyət miqyasında kişi mövqeyinin yenidən dəyərləndirilməsi zərurətini gündəmə gətirmişdir. P.Bonds bu məsələyə münasibət bildirərək vurğulayır ki, "müharibə bir çox hallarda qəfil və travmatik dəyişikliklərə səbəb olmaqla, kişilər və qadınlar arasında mövcud olmuş struktur münasibətlərin pozulmasına gətirib çıxarmış, nəticədə Robertsin də qeyd etdiyi kimi, "cinsiyyətsiz bir sivilizasiya" formalaşmağa başlamışdır. Bir çox müşahidəçilər üçün isə "kişi" və "qadın" anlayışları arasındakı sərhədlərin pozulması müharibənin ən ciddi və dönüş yaradan nəticələrindən biri hesab olunurdu" [1, s. 126].

Ənənəvi gender rollarında baş verən bu dəyişikliklər E.Heminqueyin "Günəş çıxır" romanında Ledi Brett Eşli ilə Mayk Kempbell arasındakı münasibətlər sistemində özünü göstərir. Cəmiyyətin aristokratik ənənələrindən miras qalan titul və qadın cazibəsi Brettə yalnız simvolik deyil, eyni zamanda real güc qazandırır, bu isə onun kişi obrazları ilə münasibətlərində, xüsusilə də Maykla münasibətində üstün mövqe tutmasına zəmin yaradır. Formal olaraq böyük sərvətə sahib olmasa da, Brettin maddi imkanları Maykla müqayisədə daha sabit və təminatlıdır və bu da onların münasibətində güc balansının qadın lehinə dəyişməsinə səbəb olur: "O, Mayka tərəf döndü. Bu, Bill Qortondur. Bu sərxoş isə Mayk Kempbelldir. Cənab Kempbell hələ də rəsmi şəkildə iflas etmiş şəxsdir" [5, s. 79].

Maddi üstünlüyün qadın subyektinə keçməsi Brettin fiestalar zamanı Maykın borclarını ödəməsi ilə bir daha təsdiqlənir ki, bu da onların münasibətində iqtisadi hakimiyyətin kimdə cəmləşdiyini açıq şəkildə göstərir. Beləliklə, postmüharibə dövründə qadın yalnız emosional və gender münasibətlərdə deyil, həm də iqtisadi münasibətlər müstəvisində dominant faktora çevrilir.

Brett ilə oxucunun ilk tanışlığı romanın baş qəhrəmanı və təhkiyəçisi Ceykob Barns vasitəsilə baş verir. O, Parisdəki bir klubda Brettlə qarşılaşır və bu qarşılaşma onda Brettin zahiri görünüşü və davranışları ilə bağlı konkret təsəvvür formalaşdırmağa imkan yaradır. İncə bədən quruluşu onun qadınlığını sərgiləsə də, oğlan saç modeli və qeyri-ənənəvi geyim tərzi ondakı kişi cizgilərini də paralel şəkildə vizuallaşdırır: "Brett lənətə gələsi dərəcədə gözəl görünürdü. Əynində yun sviter və ətək var idi, saçları isə oğlanlar kimi arxaya daranmışdı. Bu dəbin başlanğıcını o qoymuşdu. O, yarış yaxtasının gövdəsi kimi əyri-büyrü quruluşa malik idi və yun sviterin içində bu cizgiləri görməmək mümkün deyildi" [5, s. 22].

Tədqiqatçı A.Eliot qeyd edir ki, Heminqueyin yaradıcılığı boyunca saç vizual təsvir vasitəsi kimi çıxış etməklə, genderin identifikasiyası baxımından əsas göstəricilərdən biri rolunda iştirak edir. Onun fikrincə, "Günəş çıxır" romanında Brett Eşli "müasir qadın"ın simvolik təcəssümü kimi təqdim olunur və bu vizual xüsusiyyətlər yalnız estetik deyil, həm də ideoloji mesaj daşıyır. "Bu dəbin başlanğıcını o qoymuşdu" ifadəsi ilə müəllif onun androginal görünüşünü və gender qeyri-müəyyənliyini vurğulayır; çünki Brett həm fiziki atributları, həm də geyimi vasitəsilə kişi və qadın kateqoriyalarını birləşdirən, ikili gender modelini pozan bədii strukturda təqdim olunur [2, s.77].

Ledi Brett Eşlinin qısa, oğlanvari saç düzümü və idman üslubunu xatırladan qeyri-rəsmi geyimləri onun Viktoriya dövrü qadın idealına heç bir şəkildə uyğun gəlmədiyini nümayiş etdirir. Bununla belə, Pamplonada keçirilən gecə gəzintilərindən birində Brettin qolsuz, qara axşam geyimi onun qadına xas estetik keyfiyyətlərini ön plana çıxararaq kişi xüsusiyyətlərini bir qədər kölgədə qoyur: "Brett qara, qolsuz axşam paltarı geyinmişdi. O, olduqca gözəl görünürdü" [5, s. 146]. Bu motiv Brettin vizual təqdimatının qeyri-sabit xarakter daşıdığını, yəni onun feminist və maskulin tərzlər arasında sərbəst şəkildə keçid edə bildiyini göstərir.

Brettin davranış tərzi də fiziki görünüşü kimi androgin xüsusiyyətlər daşıyır. O, bəzi sosial situasiyalarda kişi davranışına xas xüsusiyyətlər nümayiş etdirir, açıq-saçıq ifadələrlə danışır, siqaret çəkir, kobud ifadələr işlətməkdən və "zərif xanım" etiketindən tamamilə uzaqlaşır. Onun danışığı və davranışları ənənəvi maskulinliyə birbaşa təhlükə kimi qəbul olunur, çünki o, kişiləri tarixi sosial rollarına və davranış modellərinə açıq şəkildə müdaxilə edir. Bu cür gender sərhədlərinin bulanması yalnız ictimai əmək bölgüsündə deyil, qadınların zahiri görünüşündə və gündəlik davranışlarında da özünü göstərirdi: qadınlar (Brett nümunəsində olduğu kimi) kişi kimi davranır, kişi personajları isə passiv, həssas və bəzən də "zərif qız kimi" təsvir olunurdu.

Roman nəşr olunduqdan qısa müddət sonra Ledi Brett Eşli tənqidçilər tərəfindən "xanım" titulundan məhrum edildi. Onun sərbəst davranışları, eqoist və manipulyativ hərəkətləri, kişilər üzərindəki dağıdıcı təsiri onu bir çox ədəbiyyatşünasın baxışında klassik "*femme fatale*" [2] arxetipinə yaxınlaşdırdı.

E.Uilsonun Brett obrazını ilk dəfə "tamamilə dağıdıcı qüvvə" kimi təqdim etməsindən sonra bu interpretasiya uzun müddət mübahisə edilmədən ədəbi tənqid diskursuna dominantlıq etmiş və bir çox tənqidçi bu istiqamətdə yazılar qələmə almışdır. Hətta bu ifadədən ehtiyatla yayınan tənqidçilər belə, Brettin destruktivliyini alternativ terminlərlə dilə gətirməkdən çəkinməmişlər [3, s. 61].

Brettin həyatında dəyişməz qalan yeganə fiqur romanın təhkiyəçisi, amerikalı mühacir Ceykob Barns illərlə ona dərin sevgi bəsləsə də, müharibə zamanı aldığı zədə nəticəsində impotentliyə məruz qaldığından, Brett üçün emosional və mənəvi dayaq olsa da, onun fiziki ehtiyaclarını qarşılayacaq partnyor deyil.

Onların münasibətində nəzarət Brettin əlində cəmləşir, o, digər kişilərlə görüşürsə də hər dəfə Ceykob üçün qayıda biləcəyi bir yer saxlayır. Ceykob onu anlamasa da yenə də Bretti ideallaşdırmağa davam edir və onun bütün istəklərinə boyun əyir: "Bir yerdə yaşaya bilməzdikmi, Brett? Sadəcə birgə yaşaya bilməzdikmi?" – "Düşünmürəm. Mən səni hamı ilə aldadardım. Buna dözə bilməzdin." "İndi də dözürəm". – "O başqa cür olardı. Günah məndədir, Ceyk. Mən belə yaradılmışam" [5, s. 55]. Brettin Ceykobla münasibətdə eqoistliyi təkcə ona qarşı dürüst olmaması ilə deyil, həm də Ceykobun başqa bir qadında sevgi və emosional rahatlıq tapmasına imkan verməməsi ilə ifadə olunur.

Robert Kohn isə Brett üçün yalnız keçici fiqurudur; o, Brettin təmsil olunduğu "imperial güc" modelində ilk "istila olunmuş ərazi" kimi təqdim edilir. P.Hays qeyd edir: "Günəş çıxır" romanındakı imperial güc Brettdir və onun nəzarət altına aldığı ilk "ərazi" Robert Kohn olur.

---

[2] *Femme fatale* – ifadəsi fransız mənşəli olub, ədəbiyyat, kino və incəsənətdə tez-tez rast gəlinən arxetipik qadın obrazını ifadə edir. Sözün lüğəvi tərcüməsi "öldürücü qadın" və ya "bəla gətirən qadın" deməkdir.

O, Brettin cazibəsinin təsiri altına düşür – bu isə onun feodal imperiyasında yeni məkana çevrilir" [4, s. 239].

Lakin bu münasibətdən sonra Robert dərin psixoloji sarsıntı yaşayır, Brettə bağlanır və onu əldə etmək arzusu ilə yaşayır. Brett isə ona laqeydlik göstərərək, əvvəlki yaxınlığa baxmayaraq, ona soyuq münasibət sərgiləyir: "Mən Brettlə heç cür barışa bilmirəm, Ceyk. Cəhənnəm əzabı yaşamışam, sadəcə cəhənnəm. Burada onunla qarşılaşanda sanki tanımadığı bir yad kimi davrandı. Buna dözə bilmirəm. Biz San-Sebastianda birgə yaşamışıq. Bunu yəqin bilirsən. Artıq dözə bilmirəm" [5, s. 194].

Robert Brettin azadlığını və ona əhəmiyyət vermədiyini başa düşsə də, hələ də bunu qəbul edə bilmir. O, müasir qadın konsepsiyasını rədd edir və Brettlə münasibətdə klassik cəngavərlik idealını canlandırmağa çalışır. Tədqiqatçı K.Morlend bu xüsusiyyəti konkretləşdirərək bildirir ki, Robertin davranışları sadəcə romantik və sentimental səciyyə daşımır, o, daha spesifik mənada orta əsr cəngavərinin davranışlarına uyğun gəlir [6, s. 30].

***Nəticə:*** Nəticə etibarilə, "Günəş çıxır" romanı gender stereotiplərinin tənəzzülünü və onların yerinə keçən qeyri-müəyyən sosial kimlikləri ədəbi müstəvidə ifadə edir. Yazıçı Brett obrazı vasitəsilə qadının müstəqil, sərbəst subyekt kimi görünməsinə şərait yaradır. Bu isə modernist ədəbiyyatda gender rollarına yanaşmanın əsaslı şəkildə dəyişdiyini göstərir. E.Heminqueyin romanı həm cəmiyyətin, həm də fərdi kimliyin yenidən qurulduğu bir dövrün ədəbi salnaməsi kimi dəyərləndirilə bilər.

***Tədqiqatın elmi yeniliyi:*** Tədqiqat E.Heminqueyin "Günəş çıxır" romanında gender rollarının dekonstruksiyası və postmüharibə dövründə kişi və qadın identikliyinin transformasiyası kontekstində aparılır, Brett obrazının "femme fatale" və "modern qadın" modelləri arasında dəyişən mövqeyini gender nəzəriyyələri fonunda şərh edir.

***İşin tətbiqi əhəmiyyəti:*** Tədqiqat nəticələri gender və ədəbiyyat əlaqələrinin araşdırılması sahəsində akademik diskursa yeni töhfələr verir və xüsusilə XX əsr Qərb ədəbiyyatında gender kimliyi məsələlərinin təhlilində istifadə oluna bilər. Həmçinin ali məktəblərdə gender təhlilli ədəbiyyat kursları üçün metodoloji baza kimi istifadə edilə, E.Heminqueyin tədqiqatçıları üçün əsas mənbə rolunu oynaya bilər.

## Ədəbiyyat


1. Bonds, P.B. Hemingway, Gender Identity, and the "Paris 1922" Apprenticeship / Hemingway Review. – 2009. – 123-133 p.
2. Elliott, I. Performance Art: Jake Barnes And `Masculine' Signification in The Sun Also Rises / I.Elliott, – American Literature. – 1995. – 77-94 p.
3. Fulton, L.W. Reading Around Jake's Narration: Brett Ashley and The Sun Also Rises. Hemingway Review // University of Idaho Department of English Volume 24, Number 1. – 2004. – 61-80 p.
4. Hays, P.L. Imperial Brett in The Sun Also Rises. Academic Search Complete. / P.L.Hays. – 2010. – 238-242 p.
5. Hemingway, E. The Sun Also Rises / E.Hemingway, – New York: Charles Scribner's Sons, – 1970. – 154 p.
6. Moreland, K. Hemingway's Medievalist Impulse: Its Effect on the Presentation of Women and War in The Sun Also Rises. Hemingway Review. Academic Search Complete. – 1986. – 30-41 p.


**I.A.Majidova**

## The Destruction of Gender Stereotypes in E.Hemingway's "The Sun Also Rises"

***Summary***

E. Hemingway's novel "The Sun Also Rises" reflects the reshaping of gender roles in post-war European society. The female protagonist of the work, Brett Ashley, demonstrates emotional and economic independence, differing from the traditional image of a woman. She becomes a model of

"femme fatale" who shatters gender stereotypes and challenges the patriarchal values of society. Through this novel, Hemingway delicately presents the social and psychological changes that took place in the first half of the 20th century, in the context of women's liberation and the degradation of male identity.

***Keywords:*** *gender stereotypes, women's liberation, post-war, new social model, gender inequality*

**И.А.Маджидова**

**Разрушение гендерных стереотипов в романе Э.Хемингуэя «И восходит солнце»**

***Резюме***

Роман Э.Хемингуэя «И восходит солнце» отражает переосмысление гендерных ролей в послевоенном европейском обществе. Главная героиня произведения, Бретт Эшли, демонстрирует эмоциональную и экономическую независимость, что противоречит традиционному образу женщины. Она становится образцом «роковой женщины», разрушающей гендерные стереотипы и бросающей вызов патриархальным ценностям общества. В этом романе Хемингуэй тонко изображает социальные и психологические изменения, произошедшие в первой половине XX века, в контексте женского освобождения и деградации мужской идентичности.

***Ключевые слова:*** *гендерные стереотипы, женское освобождение, послевоенный период, новая социальная модель, гендерное неравенство*

*Rəyçi: f.f.d., dos. G.M.Hüseynli*

*Redaksiyaya daxil olub: 31.07.2025*